# Nailiyyətlərimizin əsasında dövlət qayğısı dayanır

Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən önəmli istiqamətlərindən biridir. Azərbaycanın gələcək inkişafı məhz təhsillə bağlıdır.

Hazırda Respublikamızda təhsilə yüksək səviyyədə Dövlət qayğısının ifadəsi olan Təhsil İslahatı Proqramı uğurla həyata keçirilməkdədir. Bu islahatlar zamanın tələbinə uyğun olaraq təkmilləşdirilir, məzmunca daha dolğun olur, təhsilalanlar və təhsilverənlər qarşısında daha böyük perspektivlər açır.

2012-ci ildə qəbul olunmuş və ölkəmizin həyatının bütün sahələrdəki perspektivlərini müəyyənləşdirən “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf konsepsiyasında da yeni təhsil sisteminin formalaşdırılması prioritet istiqamətlərdən biri kimi göstərilmişdir.

Cənab Prezidentimiz İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” və 19 yanvar 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı “Fəaliyyət Planı” da bu prioritetliyi təmin edən proqram sənədləridir.

Hazırda ölkəmizdə bu “Strategiya”da müəyyən edilmiş 5 istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilməkdədir.

Mingəçevir təhsil işçiləri 2014-2015-ci dərs ilində “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi sahəsində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmış, diqqətəlayiq nəticələr əldə etmişlər.

Onu da qeyd edim ki, 2015-ci il mingəçevirlilər üçün, xüsusilə də Mingəçevir təhsil işçiləri üçün sevindirici olan bir hadisə ilə yaddaqalan olacaqdır. Cənab Prezidentimiz İlham Əliyevin 24 iyul 2015-ci il tarixli Sərəncamı ilə Mingəçevir Politexnik İnstitutunun bazasında Mingəçevir Dövlət Universiteti yaradılmışdır.

Biz cənab Prezidentimizin bu Sərəncamını həm də Mingəçevir təhsilinin uğurlarına verilən qiymət kimi qəbul edirik.

2014-2015-ci dərs ilində Mingəçevir Şəhər Təhsil Şöbəsinin nəzdində 19 tam orta məktəb, 2 lisey, 1 internat olmaqla cəmi 22 ümumtəhsil məktəbi və 7 məktəbdənkənar tərbiyə müəssisəsi fəaliyyət göstərmişdir.

Məktəblərdə 13272 nəfər şagird təhsil almış, məktəbdənkənar təhsil müəssisələrində 1312 şagird idman və yaradıcılıq dərnəklərinə cəlb olunmuşlar.

Fəaliyyətimizin Azərbaycanda aparılan təhsil siyasətinin mahiyyəti və məzmunu baxımından istiqamətləndirilməsi,”Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” və Strategiyanın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin ŞTŞ və onun müəssisələrinin kollektivləri tərəfindən diqqətlə öyrənilməsi, yüksək səviyyədə icra edilməsi, təhsildə keyfiyyət göstəricilərinin daha da yaxşılaşdırılması, fənn kurikulumları ilə tələb olunan səviyyədə işləməyi bacaran pedaqoji kollektivlərin formalaşması olmuşdur.

Təhsillə bağlı yeniliklər, onların əhəmiyyəti və həyata keçirilməsi sahəsində bizim vəzifələrimiz barədə pedaqoji işçilər və valideynlər arasında geniş izahat işləri, “yaddaş məktəbi”ndən “təfəkkür və düşüncə” məktəbinə keçidin, köhnə stereotiplərdən azad olmağın vacibliyi barədə söhbətlər aparılmış, dəyirmi masalar təşkil edilmişdir.

- Təhsilin Dövlət standartı və proqramların (kurikulum) tətbiqi ilə bağlı açıq dərslər, seminarlar təşkil edilmişdir.

- Müəllimlərin elmi-pedaqoji və metodik hazırlığının artırılması, yarış və müsabiqələrdə fəal iştirakı, qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi sahəsində apardıqları işlərə hərtərəfli dəstək verilmişdir.

- 138 nəfər pedaqoji işçi ixtisasartırma və kurikulum kurslarından keçirilmişdir.

- Valideynlərin və şagirdlərin məktəbin idarə edilməsi işində yaxından iştirakını, idarəetmədə şəffaflığı təmin etmək məqsədilə açıq qapı günləri, valideynlər üçün yeni təlim üsulları ilə açıq dərslər, şagird özünüidarə günləri təşkil edilmişdir.

- Müasir təlim texnologiyalarının tətbiqi ilə yeni təlim üsullarından istifadəyə geniş yer verilmişdir.

İstedadlı şagirdlərin aşkar edilməsi, onların yaradıcılıq potensialının inkişaf etdirilməsi məqsədilə bilik yarışları, elmi-nəzəri konfranslar keçirilmiş, istedadlarla fərdi qaydada işin təşkili diqqət mərkəzində saxlanılmışdır.

İstedadlı şagirdlərlə iş sahəsində Mingəçevir ŞTŞ-nin iş təcrübəsi Respublika üzrə yayılmaq üçün Təhsil Nazirliyinə təqdim edilmişdir.

- Kurikulumun tətbiqi ilə tədrisin təşkil edildiyi I-VII sinif müəllimlərinin iş təcrübəsi, əldə etdikləri nəticələr ŞTŞ metodkabinetinin rəhbərliyi altında müntəzəm keçirilən seminarlarda dinlənilmiş, onlara metodik tövsiyələr verilmişdir.
- Yeni təlim texnologiyalarından, İKT-dən səmərəli istifadə edən müəllimlərin (digər məktəblərin də müəllimlərinin iştirakı təmin edilməklə) nümunəvi dərsləri təşkil edilmiş və müzakirələri təşkil olunmuşdur.
- Dərs ili ərzində şagird nailiyyətləri nəzarətdə saxlanılmış, fənlər üzrə sınaq yoxlamaları keçirilərək nəticələri ŞTŞ təhsilyanı şurada müzakirə edilmişdir.
- Kimya, biologiya və ingilis dili fənlərindən məktəblərarası bilik yarışları keçirilmişdir.

Aparılmış məqsədyönlü işlər özünü tədris ilinin sonunda real göstəricilərdə büruzə vermişdir.

Belə ki, bütün fənlərdən yekun qiymət olaraq əla alanların ümumi sayı 74 nəfərdir ki, bunlardan da 6 nəfəri qızıl və 1 nəfəri gümüş medala layiq görülmüşdür (2014-cü ildə yalnız 1 nəfər qızıl medal almışdı).

2015-ci ildə bütün fənlərdən yekun qiymət olaraq əla alanların ümumi sayı 81 nəfərdir ki, bunlardan da 49 nəfəri fərqlənmə şəhadətnaməsinə layiq görülmüşdür (2014-cü ildə fərqlənmə şəhadətnaməsi alanların sayı 13 nəfər olmuşdur).



Məzunlarımızdan Abışova Ruhin Adil qızı 682 bal, Vəlizadə Zaur Alim oğlu 680 bal, Abbasov Etibar Həsən oğlu 652 bal, Nəbiyeva Nərmin Etibar qızı 569 bal toplamış, Həsənli Fərid Azər oğlu isə imtahanın nəticələrinə görə Sinqapur Universitetinə imtahansız qəbul olunmuşdur. Sonda Respublikanın təhsil naziri Mikayıl Cabbarovun bir sözünü xatırlatmaq istərdim. O qeyd edir ki, *“BİZ TƏHSİLİ DƏYƏR KİMİ QƏBUL EDİRİK”.*

Bu dəyəri yaradanlar biz təhsil işçiləriyik.

Bizim əməyimizin məhsulu doğma Azərbaycanımızın gələcək qurucularıdır. Ölkəmizin gələcək inkişafı onlara verilən təhsilin keyfiyyətindən, təlim-tərbiyənin səviyyəsindən, əsl vətənpərvər vətəndaşlar kimi yetişdirilmələrindən asılıdır. 2015-2016-cı dərs ilində qarşımızda duran vəzifələrin layiqincə yerinə yetirilməsi üçün fənn kurikulumları ilə işin səmərəliliyinin artırılması, hər bir təhsil işçisinin vəzifə məsuliyyətinin artırılması, qabaqcıl müəllimlərin iş təcrübəsinin öyrənilib yayılması istiqamətində işlərin gücləndirilməsi, onların həvəsləndirilməsi, potensial imkanlardan səmərəliliklə istifadə edilməsi vacibdir. Nailiyyətlərimizin əsas mənbəyi və istiqamətverici qüvvəsi təhsilə olan dövlət qayğısıdır.

**Sahib MƏMMƏDOV,**
**Mingəçevir Şəhər Təhsil Şöbəsinin müdiri,**
**pedaqogika üzrə fəlsəfə doktoru,**
**əməkdar müəllim.**